# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 170** **Bakı şəhəri, 19 mart 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 13 may tarixli 219 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan orta ixtisas təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 13 may tarixli 219 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 953 (Cild I) ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan orta ixtisas təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

**1.** 4.11-ci bənddən "Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi" sözləri çıxarılsın.

**2.** 4.16-cı bəndin birinci cümləsində "prorektorları" sözü "direktor müavinləri" sözləri ilə əvəz edilsin.

**3.** 5.2-ci bənddə "Ali təhsil" sözləri "Orta ixtisas təhsili" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***